# Təntənəli yolasalma mərasimi keçirilib

***Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına əsasən ölkəmizin hər yerində olduğu kimi, Qəbələdə də gənclərin həqiqi hərbi xidmətə çağırışı uğurla davam edir.***





İyulun 10-da şəhərin mərkəzindəki Heydər Əliyev Parkında gənclərin hərbi xidmətə yola salınması münasibətilə təntənəli mərasim keçirilib. Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, RİH başçısı aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, çağırışçıların valideynləri və ictimaiyyət nümayəndələri iştirak edib. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyublar.

Mərasimi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Qəbələ Rayon Şöbəsinin rəisi polkovnik İlqar Əliyev açaraq bu gün Azərbaycan Silahlı Qüvvələrinin ən müasir hərbi texnikaya, güclü maddi-texniki bazaya və mükəmməl döyüş hazırlığına malik peşəkar bir ordu kimi istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir olduğunu qeyd edib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev ölkəmizdə ordu quruculuğu sahəsində qazanılan uğurlardan söhbət açıb. Azərbaycanda ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğunun bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirildiyini, onun bu mühüm sahəyə göstərdiyi diqqət və qayğı nəticəsində hazırda Milli Ordumuzun regionun ən güclü və qüdrətli ordusuna çevrildiyini diqqətə çatdırıb. RİH başçısı çıxışında gənclərimizə Vətənin keşiyində ayıq-sayıq dayanmağı, ölkəmizin ərazi bütövlüyünü şərəflə qorumağı, hərb işinin sirlərinə mükəmməl yiyələnməyi tövsiyə edib.

Təntənəli mərasimdə rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev, Qarabağ müharibəsi veteranı Rövşən Kazımov, hərbi çağırışçı Fərahim Abdullayev və digərləri çıxış edərək gənclərə bu şərəfli missiyanın yerinə yetirilməsində uğurlar arzulayıblar.

Hərbi xidmətə yola düşən gənc çağırışçılar Vətənə layiqli övlad kimi xidmət edəcəklərinə söz veriblər.

Qəbələ Mədəniyyət Mərkəzinin hazırladığı konsert proqramı ilə davam edən tədbir başa çatdıqdan sonra çağırışçı gənclər marş sədaları altında Azərbaycan bayrağı qarşısında öz ehtiramlarını bildirərək böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yola düşüblər.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

# Vətəndaşlarla səyyar görüş-qəbul keçirilib

***İyulun 10-da Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Tüntül kəndində səyyar görüş-qəbulu keçirilib.***

***Rayonun hüquq-mühafizə orqanlarının, xidmət sahələri rəhbərlərinin və kənd ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi görüşdə RİH başçısı çıxış edərək Qəbələ rayonunda və Tüntül kəndində sosial-iqtisadi sahədə görülən işlər barədə ətraflı məlumat verib.***





Səbuhi Abdullayev əhalinin fasiləsiz elektrik enerjisi, təbii qaz və içməli su təchizatının yaxşılaşdırılmasından, yol infrastrukturunun yenidən qurulmasından və ərazidə aparılan digər mədəni-quruculuq layihələrindən danışıb.

RİH başçısı son illərdə rayonda sahibkarlığın inkişafına verilən dövlət dəstəyi hesabına Tüntül kəndində də xeyli işlərin görüldüyünü, xüsusilə kənd təsərrüfatı sahəsində bu işlərin daha da intensivləşdiyini və Prezident cənab İlham Əliyevin müvafiq sərəncamları ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına tətbiq olunan güzəştlərdən, ayrılan subsidiyalardan səmərəli istifadə olunması hesabına əkinçiliyin, baramaçılığın və tütünçülüyün inkişaf etdirilməsi ilə bağlı kənd sakinlərinin məşğulluğunun həll edilməsi istiqamətində yeni imkanların yarandığını diqqətə çatdırıb. İcra başçısı çıxışında sadaladığı işlərin Tüntüldə daha da sürətlənəcəyinə əminliyini bildirərək kənd sakinlərini bu sahədə fəal olmağa səsləyib.

Görüşdə çıxış edən kənd ictimaiyyəti nümayəndələri onlara göstərilən diqqət və qayğını yüksək qiymətləndirərək ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər.

Səbuhi Abdullayev görüşdə vətəndaşlar tərəfindən səsləndirilmiş təkliflərlə bağlı aidiyyəti məsul şəxslərə konkret tapşırıqlar verib.

**“Qəbələ”**
**İlkin Vəlizadə (foto).**

# Qəbələdə keçirilən Beynəlxalq yarışa və Ümumrespublika birinciliyinə yekun vurulub

***Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Fövqəladə Hallar Nazirliyi işçiləri Həmkarlar İttifaqının, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə Qəbələ şəhərində keçirilmiş "Gənc xilasedici" VI Beynəlxalq yarışına və "Gənc xilasedici və yanğınsöndürən" VII Ümumrespublika birinciliyinə iyunun 30-da yekun vurulmuşdur.***

Yekun tədbirdə Azərbaycan Respublikasının fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov, gənclər və idman naziri Azad Rəhimov, təhsil nazirinin müavini Firudin Qurbanov iştirak etmiş, komandaların üzvləri ilə görüşərək, onların sıra, fiziki və taktiki hazırlıqları, geyimləri ilə tanış olmuşlar.

Sonra gənc xilasedicilərin nümunəvi təlim çıxışları nümayiş etdirilmiş, Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində şərti olaraq baş verən yanğının söndürülməsi, köməksiz vəziyyətdə qalan insanların xilas edilməsi əməliyyatı yerinə yetirilmişdir.



Konqres Mərkəzində təşkil olunan mükafatlandırma mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, yarışlardan bəhs edən videoçarx nümayiş etdirilmişdir.

Məlumat verilmişdir ki, “Gənc xilasedici və yanğınsöndürən” Ümumrespublika birinciliyi artıq 7-ci dəfədir təşkil olunur. Bu yarışların keçirilməsində məqsəd yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsi, məktəblilər arasında sağlam həyat tərzinin təbliği, onlara şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin və hərbi-vətənpərvərlik ruhunun aşılanmasıdır. Yarış ümumilikdə üç mərhələdə - rayon (şəhər), zona və ümumrespublika yarışları mərhələləri üzrə təşkil olunmuşdur. Zona mərhələsində qalib gələn komandalar ümumrespublika final yarışlarında iştirak hüququ əldə etmişlər. Builki ümumrespublika birinciliyində 10 rayon və şəhərin komandaları mükafatlar uğrunda mübarizə aparmışlar.

“Gənc xilasedici” VI Beynəlxalq yarışında isə Azərbaycan, Türkiyə, Rusiya, Belarus, Pakistan, Gürcüstan, Ruminiya və Qazaxıstan respublikalarının komandaları qüvvələrini sınamışlar. Moldova nümayəndə heyəti isə yarışları qonaq qismində izləmişdir.

Gənclər altı gün ərzində “Maneələr zolağı”, “Kombinə edilmiş yanğın estafeti”, “Axtarış-xilasetmə işi”, “Komandaların təqdimatı” və “Divar qəzeti” mərhələləri üzrə mübarizə aparmışlar. Beynəlxalq yarışda birinci yeri Azərbaycan, ikinci yeri Belarus, üçüncü yeri Qazaxıstan komandaları tutmuşdur. Ümumrespublika birinciliyində isə ilk üç yeri müvafiq olaraq Bakı şəhəri Nizami rayonu 220 nömrəli tam orta məktəbin, Quba və Qax rayonlarının komandaları layiq görülmüşdür.

Mükafatları qalib komandaların üzvlərinə fövqəladə hallar naziri Kəmaləddin Heydərov, gənclər və idman naziri Azad Rəhimov və təhsil nazirinin müavini Firudin Qurbanov təqdim etmişdir. Qaliblərə fəxri fərman və qiymətli hədiyyələr, digər iştirakçılara isə xatirə hədiyyələri verilmişdir.

Sonda uşaqların ifasında rəngarəng musiqi nömrələri və rəqslər təqdim olunmuşdur.

**Səhrab UMUYEV.**
**“Qəbələ”**